**teatrlarımızda, televiziya məkanında at oynadır, bu tip filmlər əksər ölkələrdə çəkilir və təəssüf ki, əksər ölkələrdə tamaşaçı çoxluğu bu filmlərə üstünlük verir. Amma fərq ondadır ki, ümumilikdə sənət cameəsi bu filmlərin əsirinə çevrilməyib, bu bayağılıqdan əziyyət çəkmir, sənət filmlərinin, avanqard filmlərinin də öz müzakirə müstəvisi və tamaşaçı təbəqəsi var.**

- Bəli, avanqard filmlər, ənənəvi filmlər - özüm sevməsəm də istisna edə bilmədiyim mistik filmlər də, olmalıdır. Bir müxtəliflik olmalıdır.

**- Oktay müəllim, İran filmi dedikdə tamaşaçının gözünün qarşısında bəlli bir ölçülərə cavab verən, vizual özünəməxsusluğu olan film forması gəlir. Dünyanın bir neçə belə ölkəsi var ki, bu adların sonuna kino sözünü əlavə etdikdə göz önündə spesifik bir kino təriqəti canlanır. Bəs "Azərbaycan kinosu" adlı anlayış mövcuddurmu? Hansı ki, bu anlayış spesifikası olan bir kinoxəttə aid olsun.**

- Deməzdim ki, formalaşıb. Bəzi cizgilər var. Yəni bütün Azərbaycan ərazisində çəkilmiş filmlərdən bəzi elementləri toplasaq - hansı ki, buna böyük tədqiqat lazımdır - ondan bir nəticə çıxarmaq olar. Təbii ki, Azərbaycan kinematoqrafiyası var və onu yaşatmaq lazımdır. Amma düşünmürəm ki, sizin dediyiniz qədər dəqiq, prinsipial şəkildə bu anlayış formalaşıb.

Məsələn, bizim son dövrdə çəkilmiş bəzi filmlərimiz sanki İran kinosuna arxalanıb, oradan bəhrələnib. Bu qəbahət deyil, çünki bu prosesdir. Əsas odur ki, səmimi olasan. Hər şey bu məqam üzərində qurulur.

Fikir verək bizim SSRİ dönəmində çəkilən filmlərimizə. Bəziləri prinsipial şəkildə "Orta - sovet formatlı filmlərindən" fərqlənmirdi. Amma filmin daxilində yaşayan qəhrəmanlar, simalar - həm aktyor siması kimi, həm də personaj kimi - onlar istər-istəməz azərbaycanlı idi, bu ruhun daşıyıcıları idi. Bu mənada sualınıza cavab versək, deyə bilərik ki, müəyyən mənada bu anlayış var. Məsələn, mən 1990-cı illərin əvvəllərində bir quruma rəhbərlik edirdim, o zaman Fransanın Nant şəhərində 3 qitə film festivalı çərçivəsində "Azərbaycan günləri" keçirdik. 13 filmimizi orada nümayiş etdirdik. İnanın ki, orada filmlərə baxmaq üçün, bilet almaq üçün növbələr yaranırdı, filmdən sonra tamaşaçılar, yerli sakinlər müəlliflərdən avtoqraf alırdı və deyirdilər ki, "bu bizim üçün çox maraqlı və çox yeni bir mədəniyyətdir. Biz düşünmürdük ki, belə bir xalq mövcuddur, belə bir ölkə var Yer kürəsində".

Bax elə bu məqamlardan da görünür ki, bu proses olmalıdır və davamı gəlməlidir.

*Müsahibəni hazırladı:*
**Sərdar AMİN**

*Müsahibənin davamını növbəti sayımızda oxuya bilərsiniz.*